# AVTOQRAF,

## *yaxud Fikrət Qocanın adi həqiqətləri*

ikrət Qoca üçün keçmiş və yaşadığı həyat özüldür. Yazdıqları gələcəkdən nişan verir. Bəlkə belə demək daha sərrast olardı: Fikrət Qocanın yazdıqları ağ yol kimi gələcəyə uzanıb gedir. İşıqlı Ağ yol... Özündə güc tapan hər kəs bu ağ yola dəvətlidir.

Niyə sirrin olur ki,
Sirr saxlamaq dərdi də olsun.
Niyə dar günə tədarük görürəm,
Hələ bir dar gün də olsun.
Gördüyüm işi maraqlı bilməsəm,
Əl atmaram o işə.
Niyə gedirəm gizli görüşə.
Sonra görünməyindən
Qorxa-qorxa gəzəm.
Niyə adam dalınca
axmaq söz deyirəm
Sonra amandı eşidilməsin deyə
Canımı üzürəm.
Niyə eldən, evdən gizlənəsi iş
Tuturam
Sonra da sirr saxlamaq
Əzabına dözürəm.
Gəzirəm gün altında
Könlü açıq, gözü açıq,
Üzü açıq, sözü açıq,
Mən göz qabağındayam.
Bu əllərim,
Bu da əməllərim.

Fikrət Qocanın «Adi həqiqətlər» (Bakı, Azərnəşr, 2000) kitabında «Nəyim varsa» adı ilə təqdim olunan şeirin bir yarısını oxumaq bəs eləyir ki, bu misraların bəşərə, dünyaya məktub olduğunu duyasan. Özü də dəvət məktubu. Doğrudur get-gedə həyəcanlar artır. Misra-misra insan qəlbinin dərinliklərinə doğru yeriş var bu adi həqiqətlərdə... Ona görə adi həqiqətlər deyirik ki, hamının bildiyi, amma aça bilmədiyi sirrlərdir bu. Şairin görüşünə, duyumuna görə nə qədər bu sirrlər var, bir insan digərinin yanında başıaşağı, gözükölgəli olacaq. İnsanın cəsarəti çatmayacaq ki, öz müasirini gözlərinin içinə düz baxa bilsin. Sən demə, sirri yaradan adi həqiqətlərdən can qurtarmaq daha üstündür. Qayıdaq dəvət məktunda yazılanların davamına. Başqa sözlə, şairin həqiqətlərinə.

Mən ellər bağındayam
Barlı ağac kimi
Başdan ayağa
Göz qabağındayam
Mən toyuq kimi
Başımı qanadımın altında
gizləməmişəm.
Mən sözümü demək üçün
Kiminsə getməyini gözləməmişəm.
Nə bilirəm onu deyirəm,
Nəyim var onu yeyirəm.
Acamsa, acam, susuzamsa, susuzam...
Neyləyirəm qızıl teşti
İçində qan qusam.

Bu səmimiyyətin qabağında birgə həqiqət duruş gətirə bilər. Bəsirət gözlərinlə gördüklərinə, duyduqlarına yön çevirməyəsən.

Mən də məndən içəridəki gözlərimlə baxdığım və baxdığımda gördüklərimdən danışacağam.

Müdrikliyin və sadəliyin qocası Fikrət Qoca haqqında danışmaq kimsəyə o qədər də asan gəlməsin. Çünki o, özündən əvvəlki zamanları özündə ehtiva etməklə Qocadır. Ancaq həm də özündən min il sonrakı zamanı göstərməyi ilə qocamandır... Qocamanlıq yalnız keçmişlə bağlı deyil, həm də gələcəklə bağlıdır, özü də uzaq gələcəklə.

Bəzən Fikrət Qoca qəzəbini (ümumiyyətlə, Fikrət Qocanı qəzəbli şair kimi görmürəm, çünki qəzəblənənə qədər qəzəbi yaradan səbəbi vaxtında yazır - Ə.X.) yarımkinayə, sözünün dodaqlarından güclə seziləcək istehzalı bir təbəssümlə də deyə bilir. «Toyundu» xəbərdarlığında olduğu kimi.

Bu dünya bir oyundu...
oynayanlar oyunçu,
qalanları qoyundu.
Vay qananın halına!
oyna bala toyundu!

Fikir yükü ilə çığnanmış misraların beynlərə vurulan mismar gücü açıq-aşkar duyulur. Və təkcə duyulmaq yox, ayıltmaq, xəbər vermək, həqiqətə çağırış sözün özünü açmağı ilə görünür. Ümumiyyətlə, Fikrət Qoca fikir şairidir. Sözlərə yüklənmiş fikirlərə don biçmək sanki onun Fikrət adı ilə boyuna biçilib. Bu onun əbədi missiyasıdır. Şeirdəki həqiqətə gəldikdə isə deməliyik. Bu, şamanlıq deyil, bu, müasir Şərqin «mollanümalığı» deyil, bu, şair peyğəmbərliyidir, bu şair müdrikliyidir, bu, şair gücüdür. Bəzən



bir şimşəyin çaxışından da yol görünür. Fikrət Qoca kimi şairlərin ömrü ildırım ömrüdür. Nə işığı ötməyən, nə də təsiri bitməyən əbədi zaman fonunda yaşarı bir ömür. Fikrət Qocanın ağıllara, düşüncələrə işıq salan misraları («Ağlı olan» şeiri) demək istədiyimizdən daha çox deyə bilir.

Ağlı olan
Yolunu itirməkdən qorxur,
Yolu olan,
Pulunu...
Pulu olan ağlını...
Gəl belə qurtaraq
Bu qorxmazlıq nağılını.
Qorxmaz adam.
Bunların üçü də birdən olandı!
Qorxmaz adam yoxdu, yalandı!!!

İlahi, mənə güc ver, Fikrət Qocanın qorxduğundan qorxum, qorxmadığına güvənim.

* * *

Nə olaydı, insan öz mənəvi dünyasına uyğun planeti demirəm, adanı tapaydı. Elə o adada da yalnız özünün insanlıq qanunlarını bərqərar etmək gücündə olaydı. Sözü haqdan gələn insandan söhbət gedir. Xalq yazıçısı, Azərbaycan ziyalılığının fəxri, qüruru Anar «Adi həqiqətlər» kitabına yazdığı Ön sözdə sözarası Söz-Sənət düşüncələri ilə dəyərli bir pritça yaradır. Və zənnimcə, bu pritçada Fikrət Qocanın Söz adı çox mükəmməldir. Portret rəssam əli ilə işlənmiş kimi görünür: «Buludun, damlanın, dənizin, yarpaqların, küləyin, suyun İnsanı əhatə edən dünyanın və İnsanın özünün ən xəfif, ən gizli duyğularını, ən dərin, ən qəliz fikirlərini Şeirə, nəğməyə, sözə çevirmək məharəti şairin həm Allah vergisi, həm yer üzündə vəzifəsi, həm də əbədi təsəllisidir. Dünya Sözdən və Sözlə yarandığı kimi Sözlə də yaşayır. Deməli, Sözü deyənlər də, eşidənlər də fani deyil, əbədidirlər, baqidirlər». Anarın bu pritçasına heç nə əlavə etməyə lüzum yoxdur. Çünki Söz dünyadırsa, onun bütün rəngləri bu üç cümlənin içərisində etiva olunub. Amma yox, elə Anarın öz Sözü ilə həqiqəti axıracan ifadə etmək olar: «Ötüb keçməkdə olan XX əsrin təxminən yarısı qədər bir müddətdə Fikrət Qoca Sözün yaradıcısı, keşikçisi, qoruyucusu və yeniləyicisi kimi öhdəsinə düşən vəzifəni şərəflə yerinə yetirir. Gənc yaşlarından özünə Qoca təxəllüsü seçən Fikrət yeni şeir kitabı ilə bir daha sübut edir ki, bu gün də şeirimizdə cavanların cavanıdır. Və bu yalnız Fikrətin yox, hamımızın təsəllisidir». Bu sözləri Anar 15 ildən əvvəl yazıb, amma o vaxtdan bəri həyatımızda olduğu kimi, şeirimizdə, bütövlükdə ədəbiyyatımızda çox sular axıb, durulanı da var, durulmayanı da. Amma Fikrət Qoca bulağı həmişə dumduru olub. Məhz elə bunun özü də bir təsəllidir Anarın qeyd etdiyi kimi.

Təsəlli isə hisslə, duyğu ilə bağlı olduğu üçün onu Sözlə axıracan ifadə etmək zənnimcə, çətin olur. Bu mənada son 15 ildə hər yeni əsəri ilə poetik örnəkləri ilə təzələnən, yenidən doğulan Fikrət Qoca qoca Fikrət olmadı. Onu təkcə tanımaq yox, həm də söz-söz, fikir-fikir başa düşmək lazımdır. Axı Fikrət Qoca beş-üç kəlməyə sığacaq ədəbi obraz deyil. Axı o, müxtəlif tərəflərdən aydın görünür, lap bəsirət gözü bağlılar üçün zahirən olsa da... Müasirləri onu zəka işığı göz qamaşdıracaq gücdə olan nur sahibi, ədəbi və demək, həm də əbədi bir planet kimi görür.

...Hərdən mənə irad tuturlar. Sən ədəbi esselərində uşaqlıq duyğulanmalarını çox yada salırsan. Və mən özüm də hərdən bu iradlardan sıxılıram. Ancaq indi qətiyyən çəkinməyəcəyəm. Könlümüzün, hisslərimizin od və alov içində qaynadığı məqamlarda deyirdilər ki, (bunu yalnız şahidliyimə əsasən deyirəm) Fikrət Qocanın dərdi - özü də şəxsi dərdi yox, cəmiyyətlə, ictimai quruluşla bağlı üz-üzə duran dərdi onda xərçəng yaradıb. Elə bilirəm Fikrət Qoca ən azı otuz il bundan əvvəlki gəncliyin düşüncəsini kifayət qədər bəraətlə qiymətləndirə bilər. Çünki mübarizə motivindən çıxış edərək o vaxt belə deyirdik: «daha Fikrət Qoca neyləməlidir. Onun ciyərlərini kəsib götürüblər... dərddən, qəmdən, mənəvi sıxıntıdan yara bağlayan ciyərlərini...»

Ancaq indi öz-özümə düşünürəm: görəsən, Fikrət Qoca otuz il bundan əvvəlki gəncliyin qənaəti ilə necə hesablaşır? O vaxt əfsanəyə çevrilən, o vaxt hətta reallıq kimi qəbul olunmayan gəncliyin Fikrət Qoca fenomeni indiki yaşda özünü ədalətlə desək, təsdiq imkanında məmnun hesab edirmi? Gərək məmnun olsun. Qeyri-adi bir həyat yaşayıb. O dövrdə zəmanənin, tarixin acısına görə şair o qədər ağrıyıb ki... Min ilə də bəs edər. Sübut: heç kimin yox, yalnız özünün ədəbi kəşflərlə təsdiqlənən poetik ruhu... O dövrün gəncliyi qəribə idi. Gərək şair hansı tərəfindənsə yaralanaydı, qanı axaydı ki, biz onu sevəydik. Hətta bizim düşüncəmizdə onun daxili cismani dünyasını təşrih etməklə mənəvi dünyasına yol açılırdı. Biz gəncliyimizin Fikrət Qoca əfsanəsini belə yaşamışıq. O, bizim ruhumuzu qeyri-adi bir səslə ayıqlığa çağırırdı. Gözlərimizin önündə yeni poetik bir dünya yaranırdı. Biz xoşbəxt idik o memarı hətta öz gözlərimizlə görə bilirdik. Bu da həmin memarın çox sonralar öz əli ilə yazdığı «Gözlə qaş arasında» tərcümeyi-halı:

Gah yayam, gah da qışam,
Beyin buzdu, ürək şam,
Bir ömür yaşamışam,
Yayla qış arasında.

A dünya, qadan alım,
Həm mələksən, həm zalım,
İstədim bütöv qalım
İki daş arasında.

Mən ağrıyan bir dişəm,
Dünyanı bezdirmişəm,
Bir ölüm gəzdirmişəm,
Gözlə qaş arasında.

Açığı bir vaxtlar ara-sıra, tək-tək olsa da, həmin o uzaq keçmişdə qalmış bir qərinənin o üzündə Fikrət Qoca həqiqətlərinə əks cəbhədən yanaşanlar da vardı. Onlar Fikrət Qocanı kosmopolit vətəndən milli ruhdan kənar düşmüş kimi təqdim etməyə çalışırdılar. Yəqin ki, Sovet dövründə məhdud çap imkanları olmasaydı, bu fikirlərini mətbuatda da yazar, Fikrət Qoca ilə döyüşərdilər. Bəri başdan məğlubiyyətə məhkum olsalar da. Hər halda tələbə adutoriyalarında belə söhbətlər gəzirdi. Ancaq Fikrət Qocanı sənət sərraflığı ilə öyrənənlər görürdülər ki, onun bütün poeziyası xalqdan qaynaqlanır, xalqın fikir xəzinəsindən seçilib, götürülmüş düşüncə iksirləri yenidən müasir zərgərin fikir cilası ilə pardaqlanır. Elə göz ilə qaş arasında olduğu köhnə ölümün təzə biçimdə təqdimi kimi. Zənnimcə, aydındır. Ən çox da ona görə ki, şairin həmin üç bəndlik şeiri bircə kəlməsi də təkzib olunmayan canlı şahiddir...

...Hələ tələbə idim. Həsənağa Salayev belə bir söz dedi: Cavanlıqda vəsiqə alınır - kimin qocalmağa haqqı var. Bu gün həmin sözün kimə aid olduğunu kimsə mənimlə mübahisəyə qalxa bilməz. Ancaq mən qətiyyətlə deyirəm, Fikrət Qoca ilk gəncliyindən qocalığa vəsiqə almış bir sənətkardır. Yer geniş anlamdır. Dünya dar. Yerlə dünyanın yaşı eyni deyil. Dünyanın yaşı ilə insanın yaşı eynidir. Axı dünya insan evidir. İnsanın yaranışı ilə dünya yaranır. «Nə bilim» adlı iki misralıq - biri uzun, biri qısa - şeirində dünyanın əzəli və insanacan yolu görünür: «Nə bilim dünyada, kim vardı onda; atam səma olub, anam da torpaq, - Mən yarananda». Və zənnimcə burada Fikrət Qocalığın fəlsəfi - hikmətə söykənən mahiyyəti də açıq-aydın göz görə bizi çağırır. Özünü də ilk insanla həmyaş, ya bəlkə elə ilk insanı özünü bilməyində də bir hiperbola yoxdu. Olsa-olsa mayasında dərin həqiqət saxlayan şair yalanı var.

*(Davamı 6-cı səhifədə)*

Adəmlə həmyaşlığın iddiası qocalığa söykənmir. Bəli, söhbət adi, cismani qocalıqdan getmir. Söhbət qocamanlıqdan gedir, Nizami qocamanlığından gedir. Nizami özündən əvvəlki minilliyin tarixini özündə əxz eləmişdi və özündən sonrakı neçə min illiyə doğru da fikir yolu açmışdı. Fikrət Qoca yaradıcılığında da belə bir gələcək yükü var. «Adi həqiqətlər» kitabında Fikrət Qocanın «İnsan səviyyəsi» (Poema-düşüncələr) əsəri oxucunu göylə yer arasında səyahətə aparır. Misraların qanadlarında oxucu qaranlıqdan keçib işıqlığa çıxır. Və təzədən qarşısına çıxan zülmətlərdə azmır. Çünki artıq qaranlıqdan sonra işığın gələcəyini bilir. Şair kainatı elə doğmalıqla təqdim edir ki, onun bizim dünya evimizdən ayrı olmadığını yirsə, elə göyün nizamından ibrət götürməlidir. Bir sözlə, burada ümumi nizama çağırış var. Göyün ulduz aləmi yerin insan aləmi nə qədər bir-birinin eynidirsə, çıxış yolu da zənnimcə, biri digərinə timsal tutula bilər.

...O vaxt tələbələr arasında belə bir söz gəzirdi. İnsan daha neyləməlidir? Fikrət Qocanın ciyərini doğrayıblar... Və həmin tələbəlik dünyasının yaratdığı mifdə Fikrət Qoca fenomeni indiki nəsillər üçün kifayət qədər göründü və özünü təsdiq elədi.

...O vaxt Həsənağa Salayev düz deyirmiş: cavanlıqda vəsiqə alınır kimin qocalmağa haqqı var.

...Qoca Fikrət gərək inciməsin, nə yetmiş beş yaşa görə, nə səksən yaşa görə... bu söz, bu ünvan - «Ey Qoca» sənin üçün



# AVTOQRAF,

## *yaxud Fikrət Qocanın adi həqiqətləri*

dərk edirik. Kainat bizim dünya evimizin bir hissəsi kimi düşünülür, anlaşılır:

Göyün ulduz göz yaşı var,
Göyün də göy gülüşü var.
Hər səyyarə ailəsinin
öz çırağı - günəşi var.
Hər ailədə, hər ulduzun,
öz dolanmaq yolu var.
Hər səyyarənin öz peyki var
hər peykin o səhnədə
öz rolu var.
Bu kainat ailələrdi
çadır-çadır.
Kainatda qaçqın olmur,
hər kəsə öz yeri çatır,
hər kəsə öz yurdu çatır.
Səyyarələr bir-birinin
hüduduna keçə bilməz.
Səyyarələr bir-birinin
işıq payın içə bilməz.
qanun-qayda.
Hamı birdir, bir ailədir,
hər kəs ayrı-ayrı ada.
Hər kəs təkdi, müqəddəsdi.
Hamı birdi kainatda,
bir ahəngdi, bircə səsdi.
Ulduzların zaman boyu hərəkəti,
nizamlı bir axını var.
Onlardan da öz həddini aşan olur.
Ona görə göydə
ulduz yığını var.
Yağan yağır, uçan uçur,
Öz yerində qalan olmur,
Hamı haqqa doğru qaçır.

Zənnimcə, poemadan ayrıca təqdim olunan bu parça indiki halda düşüncələrini özündə ehtiva etdiyi üçün gərək oxucuya uzun-uzadı görünməsin, çünki göyün nizamı elə təqdim olunur ki, biz burada yerin üstündəki insanın - cəmiyyətin nizamını görürük. Əgər insan - cəmiyyət öz nizamını qoruma gücünü, nəticədə özünün qorunma instinktini işə salmaq istəüzünə deyilən yarlıq ola bilməz. Ən azı yeddi yüz, səkkiz yüz, doqquz yüz əlli ildən sonra sənin qocalmağın haqqında kim isə danışa bilər.

Fikrət Qocanın «Adi həqiqətlər»i - və bütün yaradıcılığı sübut edir ki, ən gözəl, ən dərin fikir tutumlu poetik örnəklər bir çoxlarının dediyi kimi nə göydən yağmır, nə də yerdən bitmir. O elə həyatın özündədir. Adi həqiqətlərdir. Onu görmək, duymaq - bu həqqətlərə don biçmək şairin fikri gücündən fitri istedadından, həyata baxışından asılıdır. Sağlam şair, mənəvi aləmi nizamda olan şair insanı da mənən sağlam dünyanı da nizamda görmək istəyər.

...Mənim üçün «Kredo» qəzetinin hər sayı cəmiyyətə, insanlara ünvanlanan bir kitabdır. Və hər dəfə də bu kitabın birinci üzündə söz, sənət adamına üz tutub yazdıqlarım da avtoqrafımdır. Necə ki, Fikrət Qocanın yazdıqları cəmiyyətə ünvanlanmış avtoqrafdır. Doğrudur söykənəcəyim, güvəncim Fikrət Qocanın 15 il bundan əvvəl dərc olunmuş «Adi həqiqətlər»i - mənə, sənə, hamımıza ünvanlanmış avtoqrafı oldu. Həmişə təzə, həmişə gücdə olan həqiqətləri. Dəyəri olan söz köhnə qızıldan da üstündür.

Müdrikliyin və sadəliyin qocasına, Fikrət Qocanın adi həqiqətlərinə yazdığım avtoqraf bəlkə bir qədər uzun oldu. Ancaq zənnimcə, artıq olmadı. Axı demişdim Fikrət Qoca beş-üç kəlməyə sığacaq ədəbi obraz deyil.

Yaşarı ömürlər, yaşarı sözlər - yolunuz əbədiyyətəcəndi. Bizdən gələcəyə salam deyin.

*Əli Rza XƏLƏFLİ*

*10.09.2015*